# "ƏRGÜNƏŞ" İMZALI QƏLƏM ADAMI

## Söhbət Oqtay Əliyevin yaradıcılığından gedir

**Adətən tanıdığım, yaxından bələd olduğum, necə deyərlər, hər halından bələd olduğum qələm adamlarından, söz adamlarından yazı yazanda və yaxud onlar barəsində ürəyimdəkiləri dilimə gətirəndə heç vaxt nə tərddüd etmirəm, nə də çox dərin fikrə getmirəm. Bu da səbəbsiz deyil. Adətən adam o vaxt dərin fikirləşir, o zaman götür-qoy edir ki, ya içində bir tərəddüd olur, ya da demək və yaxud yazmaq istədiyi sözün necə qarşılanacağını içində bir şübhə olur. Bax, bu mənada mən əvvəldə dediyim fikrimə bir də qayıdıram. Tanıdığım, bələd olduğum insanlar barəsində yazanda tərəddüdsüz və içimdə olanları birnəfəsə yazıram. O cümlədən də Oqtay müəllim barəsində.**

Kiçik bir arayış verim. Mən Oqtay müəllimi üzbəüz 1980-ci ildən tanıyıram. Yaradıcılığına da elə həmin ildən bələdəm. Necə deyərlər, bi-birimizin gözümüzün önündə, daha dəqiq desəm, "Araz" qəzetinin, sonra isə respublika mətbuatının səhifələrində yanaşı addımlamışıq. Bir-birimizi oxuya-oxuya, bir-birimizi dinləyə-dinləyə bu günə gəlib çıxmışıq. Və onu da əlavə edim ki, elə bu günlərdə Oqtay müəllimin 70 yaşını da qeyd edəcəyik. Bununla bağlı müəyyən tədbirlər də artıq planlaşıdırılıb. Həmin tədbirlər silsiləsində indi barəsində söz açdığım kitabların da öz yeri var. Bu kitablar Oqtay Əliyevin (Ərgünəş) iki cildliyidi. Hər iki kitabın redaktorları Əsədulla Qurbanov və İmaməddin Zəkiyevdi. Azərbaycan ədəbi aləminin yaxşı tanıdığı bu şəxslər Oqtay müəllimin iki cildliyini ürəklə, canıyananlıqla redaktə ediblər. Və mən də hədiyyə kimi əldə




etdiyim bu kitabları gözdən keçirəndə təbii ki, keçmişə bir səyahət etdim. Xəyalən olan bu səyahət Oqtay müəllimin bir zamanlar oxuduğum hekayələri, esseləri, mənsur şeirləri, satira və yumor nümunələri ilə bağlı idi. Yəni indi toplum halında olan həmin yaradıcılıq nümunələrini Oqtay müəllim ayrı-ayrı illərdə, ayrı-ayrı mətbu orqanlarında oxuculara təqdim etmişdi. Onun yaradıcılığını izləyən oxucularından biri kimi mən də təbii ki, bu yazıları mətbat səhifələrindən oxumuşdum. Amma indiki halda bütün bunlar toplu halında mənim qarşımda idi və mən həmin kitabların vərəqlərini çevirdikcə o tanış mənzərələri sanki yenidən ötüb keçirdim. Hətta Oqtay müəllimin az qala atalar sözünə çevrilən zərb-məsəl təsiri bağışlayan deyimləri burada xüsusi mənaları oxucuya çatdırır. Məsələn, Oqtay müəllim yazır ki, kişi odur atdan düşsə də, yenidən atalana!

Bu deyimin başqa, daha köklü varinatı yəqin sizə məlumdu: "Kişi odu atdan düşə atlana"

Oqtay Əliyev həmin fikri bir az da cilalayaraq daha kəsərli və qətiyyətli şəkildə atdan düşməyin eyib olmadığını, ata yenidən minməyin isə daha böyük qətiyyət sahibi olduğunun göstəricisi kimi oxucu diqqətinə çatdırır.

Bəli, mən böyük maraqla gözdən keçirdiyim bu iki cildlikdə bir nüansı da çox aydın bir şəkildə özüm üçün qətiləşdirdim. Yəni birmənalı olaraq anladım ki, bu iki kitab əslində bir yaradücü ömürünün sözü çevrilən hissəsidir. Və tam qətiyyətimlə, əminliyimlə vurğulamaq istəyirəm ki, məhz bu kitablar oxucu qəlbində Oqtay Əliyev abidəsidi. Üstəlik, bu kitablar həm də Ərgünəşə sığınan, füzulilərin, qarabağlıların, o cümlədən Oqtay Əliyevin Ərgünəş çələngidi. Bir fikrimi bir az da açıqlasam, onda görərsiniz ki, həqiqətən bu iki cildlik Ərgünəş ətəyində yaşayan, bu gün isə Ərgünəş həsrətini çəkən insanlar üçün gün işığı qədər əzizdi, doğmadı. Ən azı ona görə ki, bu sözlərin nəfəsi, mayası elə Ərgünəşin mehi, Ərgünəşin ucalığı, Ərgünəşin qaim qədimliyidi.

**Bəli, düşünürəm ki, yazıçı Oqtay Əliyev bu iki cildliklə həm də oxucularına və öz-özünə bir hesabat veribdi. Təbii ki, oxucular onun yaradıcılığına əvvəlki kitablarından qiymət veriblər. Amma bu iki cildlik həmin qiymətin təsdiqi olmaqla bahəm, həm də 70 yaşını tamalayan bir yazıçı-publisistin nələrdən keçib nələrə imza atdığını bir topa çiçək kimi, bir qucaq söz-söhbət, bar-bəhər kimi qoyub ortalığa. Qalır bizlərin, yəni oxucuların bu sözdən, bu bar-bəhərdən bəhrələnməyimiz. Yəqin ki, söz sərrafları Oqtay Əliyevin Ərgünəş nəfəsli, Ərgünəş imzalı bu iki cildliyini arayıb axtaracaq və onunla baş-başa qalanda neçə-neçə xatirəsi təzələnəcək.**

**Əbülfət MƏDƏTOĞLU**